# ÇEVİK CAVAB MEXANİZMİ

## Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir

“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” proqramı Şərq Tərəfdaşlığı regionunda yaxşı idarəçiliyin gücləndirilməsinə yönəlmiş, Avropa İttifaqı və Avropa Şurasının birgə maliyyələşdirdiyi və Avropa Şurası tərəfindən həyata keçirilən Avropa İttifaqı və Avropa Şurasının birgə əməkdaşlıq təşəbbüsüdür*.

“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” proqramı benefisiar ölkələrin islahat gündəliklərinin tələblərinə cavab verməsinə və insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində Avropa standartlarına uyğunlaşdırılmasına yönəlmiş fərdi dəstəyi təmin edir. Proqram Aİ-nin genişlənməsi prosesi üçün prioritet təşkil etməklə Moldova Respublikası və Ukraynanın namizəd statusu və Gürcüstanın Avropa perspektivi üçün də aktuallıq kəsb edir.

2015-ci ildən bəri həyata keçirilən proqram aşağıdakı əsas istiqamətlər üzrə əldə edilmiş nəticələrə əsaslanır:

- Ədalət mühakiməsinin gücləndirilməsi
- İqtisadi cinayətlərə qarşı mübarizə
- Bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin təşviqi
- Qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə

Proqram ikişaxəli yanaşmaya əsaslanmaqla aşağıdakıları təqdim edir:

- Avropa standartlarına uyğunluğun artırılmasına nail olmağa yönələn texniki yardım.
- Avropa Şurasının Çevik Cavab Mexanizmi vasitəsilə prioritet islahatlarla əlaqəli hüquqi məsləhətlər.

## ÇEVİK CAVAB MEXANİZMİ NƏDİR?

Çevik Cavab Mexanizmi (ÇCM) «Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq» proqramının elə bir alətidir ki, onun vasitəsilə Qanundan Demokyasiyaya doğru Avropa Komissiyası (Venesiya Komissiyası) və Avropa Şurasının digər orqanları Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynaya ədalət mühakiməsinin gücləndirilməsi, iqtisadi cinayətlərə qarşı mübarizə, bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin təşviqi və qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə sahəsində prioritet islahatlarla bağlı xüsusi hüquqi məsləhətlər və siyasətə dair məsləhətlər təqdim edə bilər.

ÇCM həmçinin demokratik təsisatlar və fundamental hüquqlar; seçkilər, referendumlar və siyasi partiyalar; konstitusion ədalət mühakiməsi və adi ədalət mühakiməsi kimi Venesiya Komissiyasının səlahiyyətlərinə aid olan məsələlərə dair sorğuları cavablandıra bilər.

ÇCM «Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq» proqramının layihələri çərçivəsində xüsusi olaraq təqdim edilən bilik və təcrübələri dolğunlaşdırır.

ÇCM-in təqdim etdiyi təcrübə və dəstək iştirakçı ölkələrə Avropa Şurasına üzv dövlətlər kimi öhdəliklərini yerinə yetirməkdə kömək edir və Moldova Respublikası, Ukrayna və Gürcüstan üçün Aİ-yə üzvlük perspektivi kontekstində mühüm yardımı təmin edir.

---

*Baxmayaraq ki, «Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq» proqramı Avropa İttifaqı Şurasının oktyabr 2020-ci il tarixli qənaətlərində təsbit olunmuş Belarus dövlət orqanları və dövlət müəssisələri ilə əlaqə qurmamaq Aİ siyasətinə uyğun olaraq Belarus hakimiyyət orqanlarının iştirakı ilə fəaliyyətləri əhatə etmir, Avropa İttifaqı Şurasının fevral 2022-ci il tarixli qənaətlərinə və Avropa Şurası ölkələrinin nazirlərinin nümayəndələrinin mart 2022-ci il tarixli qərarına uyğun olaraq Belarusun vətəndaş cəmiyyəti və demokratik subyektlərinin nümayəndələri ilə tədbirlər təşkil edilə bilər.

## ÇEVİK CAVAB MEXANİZMİ ÇƏRÇİVƏSİNDƏ EKSPERT RƏYİ ÜÇÜN KİM SORĞU VERƏ BİLƏR?

Benefisiar ölkələrin nazirləri və digər hökumət üzvləri, eləcə də parlamentin spikerləri ekspert rəyi üçün sorğu verə bilərlər. Rəylər digər orqanlardan da, məsələn, parlament komitələrinin və müstəqil dövlət qurumlarının rəhbərlərindən daxil olan sorğulara cavab olaraq hazırlana bilər. Avropa İttifaqı, eləcə də Avropa Şurasının orqanları (məsələn, Baş katib, Nazirlər Komitəsi, Parlament Assambleyası və Yerli və Regional Hakimiyyətlər Konqresi) ekspertiza üçün sorğular təqdim edə bilər. Venesiya Komissiyasının məsləhət rəyləri verməsi üçün sorğular konstitusiya məhkəmələri tərəfindən verilə bilər.

## SORĞU NECƏ TƏRTİB EDİLİR VƏ ONA NECƏ BAXILIR?

Ekspertiza üçün sorğular Avropa Şurasının Baş katibinə məktub, elektron poçt və ya faks vasitəsilə yazılı formada göndərilə bilər. Venesiya Komissiyasının ekspertizası ilə əlaqədar sorğular birbaşa Venesiya Komissiyasının sədrinə də ünvanlana bilər.

Sorğular mümkün qədər çox təfərrüatlardan ibarət olmalı, o cümlədən ekspertizası tələb olunan qanunvericilik aktının və ya siyasət sənədinin adını və növünü, ekspertiza üçün müraciətin və ya qanunvericiliyə və ya siyasətlərə dəyişiklik edilməsinin səbəblərini və tələb olunan ekspertizadan sonra yeni qanunvericilik aktının və ya siyasət sənədlərinin (və yaxud mövcud qanunvericilik aktına və siyasət sənədlərinə dəyişikliklərin) qəbulu üçün nəzərdə tutulan müddəti özündə ehtiva etməlidir.

Sorğular alındıqdan sonra Avropa Şurasının müvafiq qurumları tərəfindən onlara baxılır. Baxmayaraq ki, Avropa Şurası sorğu edilən ekspert rəyini mümkün qədər tez təqdim etməyə çalışır, dəqiq müddət sorğu edən dövlət orqanları ilə məsləhətləşmələr əsasında müəyyən edilir.

## SORĞUNUN TƏMİN EDİLMƏSİ ÜÇÜN MEYARLAR HANSILARDIR?

ÇCM çərçivəsində sorğular səlahiyyətli orqan tərəfindən təqdim edilməli və bundan əlavə həm də aşağıdakı meyarlara cavab verməlidir:

- Sorğu Avropa Şurasının bilik və təcrübə sahələrinə və «Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq» proqramının əhatə etdiyi sahələrdən birinə aid olmalıdır. Yeganə istisna Venesiya Komissiyası ilə əlaqədardır, bu şərtlə ki, sorğu onun səlahiyyət dairəsinə aid olsun.
- Sorğu, müvafiq benefisiar ölkədə müəyyən edilmiş konkret ehtiyaca cavab verməlidir.
- Sorğu, strateji əhəmiyyət kəsb edən əsas siyasət aspektinə aid olmalıdır.
- Sorğu, «Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq» proqramının davam edən layihələrindən biri çərçivəsində təqdim edilə bilməz.



## ÇEVİK CAVAB MEXANİZMİ ÇƏRÇİVƏSİNDƏ GÖSTƏRİLƏN DƏSTƏYƏ AİD NÜMUNƏLƏR

ÇCM tətbiq edildikdən sonra onun Şərq Tərəfdaşlığı ölkələrinin milli qanunvericiliyini Avropa Şurası standartlarına yaxınlaşdırmağa yönəlmiş çevik və səmərəli alət olduğu öz təsdiqini tapmışdır.

**Ermənistanda** Venesiya Komissiyasının və İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun Birgə rəyində (CDL-AD(2022)002-e) yer alan bəzi əsas tövsiyələr nəzərə alınmaqla 2022-ci ildə Məhkəmə Məcəlləsində dəyişiklik edilib.

**Moldova Respublikasında** Venesiya Komissiyası ilə İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun Konstitusiyaya Ali Magistratura Şurası ilə bağlı əlavə və dəyişikliklər edilməsi haqqında qanun layihəsinə dair Birgə rəylərindən (CDL-AD(2020)001-e) və (CDL-AD(2020)007-e) sonra «2021-2024-cü illər üçün ədalət mühakiməsi sektorunun müstəqilliyinin və bütövlüyünün təmin edilməsi üzrə Strategiya və Fəaliyyət Planı» yenidən işlənib və qəbul edilib.

**Gürcüstanda** parlament Venesiya Komissiyası və ATƏT/DTİHB-nin Birgə rəyində (CDL-AD(2021)008-e) verilmiş bir sıra tövsiyələri nəzərə alaraq Seçki Məcəlləsinə və «Vətəndaşların siyasi birlikləri haqqında» Qanuna dəyişiklikləri qəbul edib.

**Ukraynada** Ukraynanın Konstitusiya Məhkəməsi Konstitusiyanın 81-ci maddəsinə parlament üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi üçün yeni əsasları nəzərdə tutan dəyişikliklər layihəsi ilə bağlı məsləhət rəyi (CDL-AD(2019)029-e) üçün sorğu verib. Venesiya Komissiyasının fikrincə, təklif olunan dəyişikliklər bəzi fundamental hüquqlara, xüsusən də Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) 1 saylı Protokolunun 3-cü maddəsinə müdaxiləyə səbəb olub. Konstitusiya Məhkəməsi 24 dekabr 2019-cu ildə Venesiya Komissiyasının Rəyindən (CDL-AD(2019)029) sonra dəyişikliklər layihəsinin konstitusiyaya zidd olduğu barədə qərar qəbul edib.






## SORĞUNU HARA GÖNDƏRMƏLI

ÇCM çərçivəsində sorğular Avropa Şurasının Baş katibinə məktub, elektron poçt və ya faks vasitəsilə bu ünvana göndərilə bilər:

Avropa Şurasının Baş katibi
F-67075 Strasburq Cedex Fransa
Tel: + 33 3 88 41 20 00
Faks: + 33 3 88 41 27 99
Veb-sayt: www.coe.int/en/web/secretary-general/private-office

ÇCM çərçivəsində Venesiya Komissiyasının ekspert rəyi üçün təqdim edilən sorğular məktub, elektron poçt və ya faks vasitəsilə Venesiya Komissiyasının sədrinə də göndərilə bilər:

Avropa Şurasının Venesiya Komissiyasının sədri
Avropa Şurası
67075 Strasburq Cedex Fransa
E-mail: venice@coe.int
Faks: +33 3 88 41 37 38

## ƏLAVƏ MƏLUMAT

“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” Proqramının Koordinasiya qrupu
Proqram Koordinasiyası Direktorluğu
Avropa Şurası
Avropa prospekti, F-67075 Strasburq Cedex, Fransa
E-mail: dpc_pgg@coe.int

“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” 2023-cü ildən 2027-ci ilədək həyata keçirilməsi nəzərdə tutulan, Şərq Tərəfdaşlığı ölkələrinin fərdi ehtiyaclarına uyğun olaraq milli qanunvericiliyin və təcrübənin Avropa standartlarına uyğunlaşdırılması ilə əlaqədar təşkil edilən regional proqramdır.
Çevik Cavab Mexanizmi (ÇCM) “Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” proqramının elə bir alətidir ki, onun vasitəsilə Qanundan Demokratiya doğru Avropa Komissiyası (Venesiya Komissiyası) və Avropa Şurasının digər orqanları Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynaya ədalət mühakiməsinin gücləndirilməsi, iqtisadi cinayətlərə qarşı mübarizə, bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin təşviqi və qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə sahəsində prioritet islahatlarla bağlı xüsusi hüquqi məsləhətlər və siyasətə dair məsləhətlər təqdim edə bilər.

## ƏLAVƏ MƏLUMAT

«Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq» Proqramının Koordinasiya qrupu
Proqram Koordinasiyası Direktorluğu
Avropa Şurası
Avropa prospekti, F-67075 Strasburq Cedex, Fransa

**E-mail: dpc_pgg@coe.int**
**Veb-sayt: http://partnership-governance-eu.coe.int/**

PREMS 001125 – Photos: Shutterstock

AZE

Avropa İttifaqına üzv dövlətlər öz təcrübələrini, resurslarını və müqəddəratlarını bir-biri iə bağlamaq qərarına gəlmişlər. Onlar birlikdə, mədəniyyət müxtəlifliyini, tolerantlığı və fərdi azadlıqları qorumaqla sabitlik, demokratiya və dayanıqlı inkişaf zonası yaratmışlar. Avropa İttifaqı öz nailiyyətlərini və dəyərlərini öz hüdudlarından kənarda olan ölkələr və xalqlarla bölüşmək əqidəsinə sadiqdir.

**www.europa.eu**

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqi tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir